**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ İDARƏ HEYƏTİNİN**

**QƏRARI**

**№ 04/2**

**Bakı şəhəri** **26 yanvar 2024-cü il**

**“Müstəqil ekspert fəaliyyətinin həyata keçirilməsinə dair minimum Tələblər”in təsdiq edilməsi barədə**

“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 94-1.10-cu maddəsinə və “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikası Qanununun 22.1.17-ci maddəsinə əsasən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti

**QƏRARA ALIR:**

1. “Müstəqil ekspert fəaliyyətinin həyata keçirilməsinə dair minimum Tələblər” təsdiq edilsin (əlavə olunur).
2. Hüquq departamentinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**

“Təsdiq edilmişdir”
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 04/2
26 yanvar 2024-cü il

**Müstəqil ekspert fəaliyyətinin həyata keçirilməsinə dair minimum**

**Tələblər**

## 1. Ümumi müddəalar

1.1. Bu Tələblər “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 94-1.10-cu maddəsinə uyğun olaraq hazırlanmışdır və müstəqil ekspert fəaliyyətinin həyata keçirilməsinə dair minimum tələbləri müəyyən edir.

1.2. Bu Tələblərin 2-ci, 4-cü və 6-cı hissələri “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təyin olunan müstəqil ekspertlərə tətbiq edilmir.

## 2. Müstəqil ekspert tərəfindən sığorta hadisələrinin qiymətləndirilməsi prosesinə dair tələblər

2.1. Müstəqil ekspert Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 925-1-ci maddəsinə uyğun olaraq təyin edilir.

2.2. Müstəqil ekspert Mülki Məcəllənin 925-1.2-ci və 925-1.4-cü maddələrinə uyğun olaraq təyin edildiyi hallarda ekspertizanın aparılmasına aşağıdakı tələblərin hamısı mövcud olduqda başlaya bilər:

2.2.1. ekspertizanın keçirilməsini tələb edən şəxsin təklif etdiyi müvafiq sahəyə uyğun gələn 3 (üç) müstəqil ekspertdən birinin təyin edilməsi ilə bağlı sığortaçıya ünvanlanmış müraciət;

2.2.2. sığortaçının bu Tələblərin 2.2.1-ci yarımbəndində qeyd olunan 3 (üç) müstəqil ekspertin sırasından seçdiyi 1 (bir) müstəqil eksperti təyin etməsi ilə bağlı həmin müstəqil ekspertə ən azı aşağıdakı məlumatlar qeyd olunmaqla ünvanladığı bildiriş:

2.2.2.1. zərər dəymiş predmetin növü, sığorta hadisəsinin baş vermə yeri və ünvanı;

2.2.2.2. sığorta hadisəsi üzrə ekspertizanın keçirilməsi nəzərdə tutulan predmetin olduğu yer və ünvan;

2.2.2.3. ekspertizanın keçirilməsi üzrə müstəqil ekspertə ekspertizanın keçirilməsi üçün təklif olunan xidmət haqqının məbləği.

2.3. Müstəqil ekspert Mülki Məcəllənin 925-1.3-cü maddəsinə və ya “İcbari sığortalar haqqında” Azərbaycan Respublikası Qanununun 16.4-cü maddəsinə uyğun

olaraq təyin edildikdə, ekspertizanın aparılmasına ekspertizanı tələb edən şəxsin ona ünvanlandığı müraciəti əsasında başlayır.

2.4. Müstəqil ekspert ekspertizanın aparılmasına razılıq verdiyi barədə məlumatı ona müraciət edildiyi tarixdən etibarən ən geci 1 (bir) iş günü ərzində onun təyin edilməsini tələb edən tərəfə və sığortaçıya təqdim etməlidir.

2.5. Müstəqil ekspert ekspertizanın aparılmasından imtina edilməsi ilə bağlı məlumatı imtinanın səbəbi göstərilməklə ona müraciət edildiyi tarixdən etibarən ən geci 1 (bir) iş günü ərzində sığortaçıya və ekspertizanın keçirilməsini tələb edən şəxsə təqdim etməlidir.

2.6. Bir sığorta hadisəsi üzrə ekspertizanın aparılması üçün iki və ya daha çox müxtəlif sahə üzrə müstəqil ekspert təyin olunduğu hallarda, bu Tələblərin 2.2-ci və 2.3-cü bəndlərinin tələbləri hər bir sahəyə münasibətdə təyin olunan müstəqil ekspertə şamil olunur.

2.7. Bu Tələblərin 2.8-ci bəndi nəzərə alınmaqla, müstəqil ekspert tərəfindən bu Tələblərin 2.4-cü bəndinə uyğun olaraq ekspertizanın aparılmasına razılıq verildiyi tarix ekspertizanın başlama tarixi hesab olunur.

2.8. Müstəqil ekspert Mülki Məcəllənin 925-1.4-cü maddəsinin tələblərinə uyğun olaraq təyin edildiyi halda, ekspertizanın həyata keçirilməsi barədə bağlanmış mülki-hüquqi müqavilədə ekspertizanın başlanması ilə bağlı razılaşdırılmış tarix ekspertizanın başlama tarixi hesab olunur.

2.9. Bu Tələblərin 2.10-cu bəndi nəzərə alınmaqla, müstəqil ekspert ekspertizanın aparılmasını başa çatdırdıqdan sonra qiymətləndirilən zərərin nəticəsinə dair ekspertiza rəyini tərtib edərək ekspertizanın həyata keçirilməsi barədə bağlanmış mülki-hüquqi müqavilədə müəyyən olunmuş müddətdə sığortaçıya və ekspertizanın keçirilməsini tələb edən şəxsə təqdim etməlidir.

2.10. Avtomobil nəqliyyatı sahəsi üzrə fəaliyyət göstərən müstəqil ekspert ekspertizanın başlama tarixindən etibarən 7 (yeddi) iş günündən gec olmayaraq ekspertizanın aparılmasını başa çatdırmalı və qiymətləndirilən zərərin nəticəsinə dair ekspertiza rəyini tərtib edərək sığortaçıya və ekspertizanın keçirilməsini tələb edən şəxsə təqdim etməlidir.

2.11. Ekspertiza müvafiq fəaliyyət sahəsinə uyğun gələn üsul və vasitələrdən (metodlardan) istifadə etməklə və yerində baxış keçirməklə müstəqil ekspert fiziki şəxs olduqda onun özü tərəfindən, hüquqi şəxs olduqda isə onun əmək müqaviləsi əsasında işləyən müvafiq sahə üzrə müstəqil ekspert sertifikatına malik olan işçisi tərəfindən aparılmalıdır.

2.12. Müstəqil ekspert razılaşdırılmış və ekspertizanın həyata keçirilməsi barədə bağlanmış mülki-hüquqi müqavilədə qeyd edilmiş xidmət haqqı məbləğindən başqa müstəqil ekspertiza üçün birbaşa və ya dolayı yolla heç bir əlavə haqq və ödəniş, habelə maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər tələb və ya qəbul edə bilməz.

2.13. Müstəqil ekspert ekspertizanın həyata keçirilməsi zamanı peşəkarlıq nümayiş etdirməli, peşəkarlığa zidd əməllərdən və kənar sövdələşmələrdən çəkinməlidir.

2.14. Müstəqil ekspert xidmət haqqı ödənişlərinin nağdsız qaydada qəbul edilməsi üçün imkan yaratmalı və müvafiq haqqın nağdsız qaydada qəbul edilməsindən imtina etməməlidir.

## 3. Müstəqil ekspert rəyinin məzmunu və forması

3.1. Müstəqil ekspert rəyi (bundan sonra - rəy) ümumi və xüsusi hissədən ibarət olmaqla bu Tələblərin 1 nömrəli Əlavəsində müəyyən edilmiş formaya uyğun tərtib olunmalıdır.

3.2. Rəyin ümumi hissəsində ən azı aşağıdakı məlumatlar əks olunur:

3.2.1. "Uçot nömrəsi" hissəsində bu Tələblərin 3.8-ci bəndinə əsasən müəyyən edilən nömrə;

3.2.2. fiziki şəxs olan müstəqil ekspert üzrə 1.1-ci bənddə soyadı, adı, atasının adı, 1.2-ci bənddə VÖEN-i, 1.3-cü bənddə qeydiyyatda olduğu ünvan, 1.4-cü bənddə mobil telefon nömrəsi, 1.5-ci bənddə mövcud olduğu halda elektron poçt ünvanı;

3.2.3. ekspertiza hüquqi şəxs olan müstəqil ekspert tərəfindən həyata keçirildikdə, 2.1-ci bənddə adı, 2.2-ci bənddə VÖEN-i, 2.3-cü bənddə olduğu yerin (daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerin) ünvanı, 2.4-cü bənddə telefon nömrəsi, 2.5-ci bənddə mövcud olduğu halda elektron poçt ünvanı;

3.2.4. 3.1-ci bənddə müstəqil ekspert sertifikatının seriya və nömrəsi, 3.2-ci bənddə sertifikatda qeyd olunan fəaliyyət sahəsinin adı, 3.3-cü bənddə sertifikatın verilmə tarixi, 3.4-cü bənddə sertifikatın qüvvədə olma müddəti;

3.2.5. 4-cü hissədə ekspertizanın keçirilməsini tələb edən şəxs üzrə aşağıdakı məlumatlar:

3.2.5.1. fiziki şəxs olduqda 4.1-ci bənddə soyadı, adı, atasının adı, 4.2-ci bənddə mövcud olduğu halda VÖEN-i, 4-3-cü bənddə qeydiyyatda olduğu ünvan, 4.4-cü bənddə mobil telefon nömrəsi, 4.5-ci bənddə mövcud olduğu halda elektron poçt ünvanı;

3.2.5.2. hüquqi şəxs olduqda 4.1-ci bənddə adı, 4.2-ci bənddə VÖEN-i, 4.3-cü bənddə olduğu yerin (daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerin) ünvanı, 4.4-cü bənddə telefon nömrəsi, 4.5-ci bənddə mövcud olduğu halda elektron poçt ünvanı;

3.2.6. 5-ci hissədə müstəqil eksperti təyin edən şəxs üzrə aşağıdakı məlumatlar:

3.2.6.1. fiziki şəxs olduqda 5.1-ci bənddə soyadı, adı, atasının adı, 5.2-ci bənddə mövcud olduğu halda VÖEN-i 5.3-cü bənddə qeydiyyatda olduğu ünvan, 5.4-cü bənddə mobil telefon nömrəsi, 5.5-cü bənddə mövcud olduğu halda elektron poçt ünvanı;

3.2.6.2. hüquqi şəxs olduqda 5.1-ci bənddə adı, 5.2-ci bənddə VÖEN-i, 5.3-cü bənddə olduğu yerin (daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerin) ünvanı, 5.4-cü bənddə telefon nömrəsi, 5.5-ci bənddə mövcud olduğu halda elektron poçt ünvanı;

3.2.7. müstəqil ekspert sığortaçı olmayan şəxs tərəfindən təyin edildikdə sığorta müqaviləsində qeyd olunan sığortaçı üzrə 6.1-ci bənddə adı, 6.2-ci bənddə VÖEN-i, 6.3-cü bənddə olduğu yerin (daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerin) ünvanı, 6.4-cü bənddə telefon nömrəsi, 6.5-ci bənddə elektron poçt ünvanı.

3.3. Rəyin xüsusi hissəsində ən azı aşağıdakı məlumatlar əks olunmalıdır:

3.3.1. 7-ci hissədə sığorta müqaviləsinin seriyası və nömrəsi;

3.3.2. 8-ci hissədə sığorta müqaviləsində qeyd olunan sığorta növünün adı;

3.3.3. 9-cu hissədə sığortalı üzrə aşağıdakı məlumatlar:

3.3.3.1. fiziki şəxs olduqda 9.1-ci bənddə soyadı, adı, atasının adı, 9.2-ci bənddə mövcud olduğu halda VÖEN-i, 9.3-cü bənddə qeydiyyatda olduğu ünvan, 9.4-cü bənddə mobil telefon nömrəsi, 9.5-ci bənddə mövcud olduğu halda elektron poçt ünvanı;

3.3.3.2. hüquqi şəxs olduqda 9.1-ci bənddə adı, 9.2-ci bənddə VÖEN-i, 9.3-cü bənddə olduğu yerin (daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerin) ünvanı, 9.4-cü bənddə telefon nömrəsi, 9.5-ci bənddə mövcud olduğu halda elektron poçt ünvanı;

3.3.4. 10-cu hissədə hadisənin baş verdiyi ünvan (şəhər, rayon və s.);

3.3.5. 11-ci hissədə hadisənin baş vermə tarixi (gün, ay, il) və vaxtı (saat, dəqiqə);

3.3.6. 12-ci hissədə zərər dəymiş əmlakın (əmlakların) siyahısı və adları;

3.3.7. 13-cü hissədə müstəqil ekspertin hadisəyə baxış keçirdiyi yerin ünvanı (şəhər, rayon və s.);

3.3.8. 14-cü hissədə ekspertizanın başlama tarixi (gün, ay, il);

3.3.9. 15-ci hissədə ekspertizanın bitmə tarixi (gün, ay, il);

3.3.10. 16-cı hissədə zərər dəymiş əmlakın hər bir hissəsinin təmir və ya bərpasına tələb olunan xərclərin və həmin hadisə ilə bağlı digər xərclərin məbləği;

3.3.11. 17-ci hissədə dəymiş zərərin hesablanmış ümumi məbləği;

3.3.12. 18-ci hissədə ekspertizanın keçirilməsi üçün müstəqil ekspert tərəfindən əldə olunmuş sənədlərin siyahısı;

3.3.13. 19-cu hissədə zərərin qiymətləndirilməsi üçün istifadə edilən üsul və vasitələr (metodlar), habelə müstəqil ekspertin zərərin qiymətləndirilməsi və (və ya) sığorta hadisəsinin araşdırılması ilə bağlı əsaslandırmalar;

3.3.14. 20-ci hissədə zərərin qiymətləndirilməsi ilə bağlı müstəqil ekspert tərəfindən aparılan digər qeydlər.

3.4. Rəyin hər bir hissəsinə həmin hissəyə uyğun gələn və müstəqil ekspert tərəfindən zəruri hesab olunan digər məlumatlar əlavə oluna bilər.

3.5. Ekspertizanın keçirilməsi üçün müstəqil ekspert tərəfindən əldə olunmuş təsdiqedici sənədlər, habelə hadisə ilə bağlı foto və video çəkilişlər rəyə əlavə olunmalıdır.

3.6. Ekspertiza fiziki şəxs olan müstəqil ekspert tərəfindən həyata keçirildikdə, rəy onun tərəfindən tərtib olunmalı və rəyin verildiyi tarix göstərilməklə imzalanmalıdır.

3.7. Ekspertiza hüquqi şəxs olan müstəqil ekspert tərəfindən keçirildikdə, rəy hüquqi şəxsin əmək müqaviləsi əsasında işçisi olan müstəqil ekspert tərəfindən tərtib olunmalı, onun və hüquqi şəxsin icra orqanının rəhbəri tərəfindən imzalanıb, rəyin verildiyi tarix göstərilməklə hüquqi şəxsin möhürü ilə təsdiq olunmalıdır.

3.8. Rəylərin uçotu müstəqil ekspert sahələrinə münasibətdə aparılmalı, habelə artan sıra ilə ardıcıl və Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra – Mərkəzi Bank) tərəfindən hər bir sahə üzrə verilən reyestr kodu istifadə olunmaqla nömrələnməlidir.

## 4. Müstəqil ekspertlə bağlanılan xidmətin göstərilməsi ilə əlaqədar mülki-hüquqi müqaviləyə dair tələblər

4.1. Müstəqil ekspert Mülki Məcəllənin 925-1.2-ci və 925-1.3-cü maddələrinin tələblərinə uyğun təyin edildikdə, ekspertiza müstəqil ekspertlə ekspertizanın həyata keçirilməsi ilə bağlı onu təyin edən tərəf arasında bağlanılan mülki-hüquqi müqavilə əsasında həyata keçirilir.

4.2. Müstəqil ekspert Mülki Məcəllənin 925-1.4-cü maddəsinin tələblərinə uyğun olaraq təyin edildikdə, ekspertiza müstəqil ekspertlə ekspertizanın həyata keçirilməsi ilə bağlı onun təyin edilməsini təklif edən tərəf arasında bağlanılan mülki-hüquqi müqavilə əsasında həyata keçirilir.

4.3. Bu Tələblərin 4.1-ci və 4.2-ci bəndlərinə uyğun olaraq bağlanılan mülki-hüquqi müqavilədə ən azı aşağıdakı məlumatlar əks olunmalıdır:

4.3.1. müqavilənin nömrəsi və bağlandığı tarix;

4.3.2. müqavilə tərəfləri haqqında məlumat (fiziki şəxsin soyadı, adı, atasının adı, qeydiyyatda olduğu ünvan, hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i);

4.3.3. müstəqil ekspert sertifikatının seriya və nömrəsi;

4.3.4. müqavilənin predmeti;

4.3.5. müstəqil ekspertin ekspertiza keçiriləcəyi fəaliyyət sahələrinin siyahısı;

4.3.6. bu Tələblərin 4.1-ci bəndinə uyğun olaraq bağlanılan mülki-hüquqi müqavilədə müstəqil ekspertin fəaliyyət göstərdiyi sahə (sahələr) üzrə ekspertiza predmetinin növü və ekspertiza predmetinin yerləşdiyi yerə (şəhərə, rayona və s.) münasibətdə təyin olunduğu hər bir ekspertiza üzrə ona ödəniləcək xidmət haqqının məbləği;

4.3.7. bu Tələblərin 4.2-ci bəndinə uyğun olaraq bağlanılan mülki-hüquqi müqavilədə ödəniləcək xidmət haqqının məbləği;

4.3.8. xidmət haqqının ödənilməsi tarixi və qaydası;

4.3.9. ekspertizanın başlanma tarixi;

4.3.10. ekspert rəyinin verilməsi müddəti;

4.3.11. tərəflərin hüquq və vəzifələri.

## 5. Müstəqil ekspertlərin hesabatlılığı

5.1. Müstəqil ekspert tərəfindən fəaliyyəti ilə bağlı Mərkəzi Banka rüblük hesabatlar təqdim olunur.

5.2. Fiziki şəxs olan müstəqil ekspertlərin hesabatları rüb başa çatdıqdan sonra 20 (iyirmi) gün müddətində bu Tələblərin 2 nömrəli Əlavəsində müəyyən olunan formaya uyğun olaraq gücləndirilmiş elektron imza ilə təsdiq edilərək Mərkəzi Bankın elektron sistemi vasitəsilə təqdim edilir.

5.3. Hüquqi şəxs olan müstəqil ekspertlərin hesabatları rüb başa çatdıqdan sonra 20 (iyirmi) gün müddətində bu Tələblərin 3 nömrəli Əlavəsində müəyyən olunan formaya uyğun olaraq icra orqanının rəhbərinin və ya onun tərəfindən səlahiyyətləndirilmiş vəzifəli şəxsin (şəxslərin) gücləndirilmiş elektron imzası ilə təsdiq edilərək Mərkəzi Bankın elektron informasiya sistemi vasitəsilə təqdim edilir.

## 6. Yekun müddəalar

İcbari sığorta növləri üzrə bu Tələblərin 2-ci, 3-cü və 4-cü hissələrində müəyyən edilmiş əməliyyatlar İcbari Sığorta Bürosunun elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.

*Müstəqil ekspert fəaliyyətinin həyata keçirilməsinə dair minimum Tələblər"ə*
*Əlavə 1*

## Sığorta sahəsi üzrə müstəqil ekspertin rəyi

<u>ÜMUMİ HİSSƏ</u>

**Uçot №:**

**1. Fiziki şəxs olan müstəqil ekspert:**

1.1. Adı:________________________________________________

1.2. VÖEN:________________________________________________

1.3. Ünvanı:________________________________________________

1.4. Telefon nömrəsi:__________________________________________

1.5. Elektron poçt ünvanı:________________________________________

**2. Hüquqi şəxs olan müstəqil ekspert:**

2.1. Adı:________________________________________________

2.2. VÖEN:________________________________________________

2.3. Ünvanı:________________________________________________

2.4. Telefon nömrəsi:__________________________________________

2.5. Elektron poçt ünvanı:________________________________________

**3. Müstəqil ekspert sertifikatı:**

3.1. Sertifikatın seriya və nömrəsi: ____________________________________

3.2. Fəaliyyət sahəsinin adı:______________________________________

3.3. Sertifikatın verilmə tarixi:______________________________________

3.4. Sertifikatın qüvvədə olma
müddəti:____________________________________

**4. Ekspertizanın keçirilməsini tələb edən şəxs:**

4.1. Adı:________________________________________________

4.2. VÖEN:________________________________________________

4.3. Ünvanı:________________________________________________

4.4. Telefon nömrəsi:__________________________________________

4.5. Elektron poçt ünvanı:________________________________________

**5. Müstəqil eksperti təyin edən şəxs:**

5.1. Adı:________________________________________________

5.2. VÖEN:________________________________________________

5.3. Ünvanı:__________________________________________________________

5.4. Telefon nömrəsi: __________________________________________________

5.5. Elektron poçt ünvanı: _________________________________________________

**6. Sığortaçı:**

6.1. Adı:____________________________________________________________

6.2. VÖEN:__________________________________________________________

6.3. Ünvanı:__________________________________________________________

6.4. Telefon nömrəsi:____________________________________________________

6.5. Elektron poçt ünvanı:__________________________________________________

## XÜSUSİ HİSSƏ

**7. Sığorta müqaviləsinin seriya və nömrəsi:** ______________________________________

**8. Sığorta növü:** _______________________________________________________

**9. Sığortalı:**

9.1. Adı:____________________________________________________________

9.2. VÖEN:__________________________________________________________

9.3. Ünvanı:__________________________________________________________

9.4. Telefon nömrəsi:____________________________________________________

9.5. Elektron poçt ünvanı:__________________________________________________

**10. Hadisənin baş verdiyi ünvan:**____________________________________________

**11. Hadisənin baş vermə tarixi və vaxtı:**_______________________________________

**12. Zərər dəymiş əmlakın siyahısı:**__________________________________________

**13. Ekspertin baxış keçirdiyi ünvan:**_________________________________________

**14. Ekspertizanın başlama tarixi:**___________________________________________

**15. Ekspertizanın bitmə tarixi:**_____________________________________________

**16. Zərər dəymiş əmlakın hər bir hissəsinə tələb olunan xərclərin və sığorta hadisə ilə bağlı digər xərclərin məbləği:**

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

**17. Zərərin ümumi məbləği:**________________________________________________
______________________________________________________________________

**18. Sənədlərin siyahısı:** __________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

**19. Müstəqil ekspert rəyinin əsaslandırılması:**

**20. Digər məlumatlar:**

*Müstəqil ekspert fəaliyyətinin həyata keçirilməsinə dair minimum Tələblər"ə*
*Əlavə 2*

# FİZİKİ ŞƏXS OLAN MÜSTƏQİL EKSPERTİN FƏALİYYƏTİ HAQQINDA HESABAT

Fiziki şəxs olan müstəqil ekspertin adı ________________________________

Hesabat dövrü ______________________________________

| Müstəqil ekspertin fəaliyyət sahəsinin adı | Sığorta müqaviləsinin seriyası və nömrəsi | Müstəqil ekspert rəyinin uçot nömrəsi | Sığorta hadisəsinin baş verdiyi ərazi (şəhər, rayon və s.) | Ekspertizanın aparıldığı ərazi (şəhər, rayon və s.) | Müstəqil ekspertin təyin olunduğu (razılıq verdiyi və ya müqavilə bağladığı) tarix | Ekspertizanın başlama tarixi | Ekspertizanın bitmə tarixi | Müstəqil ekspert tərəfindən aparılan qiymətləndirmə üzrə zərər məbləği | Müstəqil ekspert rəyinin təsdiq olunma tarixi | Müstəqil ekspert rəyinin sığortaçıya təqdim olunma tarixi | Müstəqil ekspert rəyinin ekspertizanın keçirilməsini tələb edən tərəfə təqdim olunma tarixi | Müstəqil eksperti təyin edən tərəf | | Ekspertizanın keçirilməsini tələb edən tərəf | | Sığorta müqaviləsi üzrə sığortaçının adı | Ödənilmiş xidmət haqqı məbləği |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | Sığortaçının adı | Təyin edən digər şəxsin adı | Fiziki şəxsin soyadı, adı, atasının adı | Hüquqi şəxsin adı | | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** | **12** | **13** | **14** | **15** | **16** | **17** | **18** |
| Avtomobil nəqliyyatı | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | |
| ............... | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | |
| **Cəmi** | | | | | | | | | | | | | | | | | |

*Müstəqil ekspert fəaliyyətinin həyata keçirilməsinə dair minimum Tələblər"ə*
*Əlavə 3*

# HÜQUQİ ŞƏXS OLAN MÜSƏQİL EKSPERTİN FƏALİYYƏTİ HAQQINDA HESABAT

Hüquqi şəxs olan müstəqil ekspertin adı ______________________________

Hesabat dövrü __________________________________

| Müstəqil ekspertin fəaliyyət sahəsinin adı | Sığorta müqaviləsinin seriyası və nömrəsi | Müstəqil ekspert rəyinin uçot nömrəsi | Sığorta hadisəsinin baş verdiyi ərazi (şəhər, rayon və s.) | Ekspertizanın aparıldığı ərazi (şəhər, rayon və s.) | Hüquqi şəxs müstəqil ekspertin əmək müqaviləsi əsasında işləyən fiziki şəxs olan müstəqil ekspertin soyadı, adı, atasının adı | Müstəqil ekspertin təyin olunduğu (razılıq verdiyi və ya müqavilə bağladığı) tarix | Ekspertizanın başlama tarixi | Ekspertizanın bitmə tarixi | Müstəqil ekspert tərəfindən aparılan qiymətləndirmə üzrə zərər məbləği | Müstəqil ekspert rəyinin təsdiq olunma tarixi | Müstəqil ekspert rəyinin sığortaçıya təqdim olunma tarixi | Müstəqil ekspert rəyinin ekspertizanın keçirilməsini tələb edən tərəfə təqdim olunma tarixi | Müstəqil eksperti təyin edən tərəf | | Ekspertizanın keçirilməsini tələb edən tərəf | | Sığorta müqaviləsi üzrə sığortaçının adı | Ödənilmiş xidmət haqqı məbləği |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | | Sığortaçının adı | Təyin edən digər şəxsin adı | Fiziki şəxsin soyadı, adı, atasının adı | Hüquqi şəxsin adı | | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** | **12** | **13** | **14** | **15** | **16** | **17** | **18** | **19** |
| Avtomobil nəqliyyatı | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | |
| **Cəmi** | | | | | | | | | | | | | | | | | | |